# 09 Yeganə Oğlunu Təqdim Etmək

## Yaradılış 22:1-18

[1] Bir müddət sonra Tanrı İbrahimi sınağa çəkdi. O «Ey İbrahim!» deyə çağırdı. İbrahim
«Buradayam!» dedi. [2] Tanrı dedi: «Sevdiyin yeganə oğlunu – İshaqı götürüb Moriya torpağına get.
Orada sənə göstərəcəyim bir dağda oğlunu yandırma qurbanı olaraq təqdim et». [3] İbrahim səhər
tezdən qalxdı və eşşəyini palanladı. Özü ilə iki nökərini və oğlu İshaqı götürdü. O, yandırma
qurbanı üçün odun yardı və qalxıb Tanrının dediyi yerə yollandı. [4] İbrahim üçüncü gün başını
qaldırıb uzaqdan o yeri gördü. [5] O, nökərlərinə dedi: «Siz eşşəklə birlikdə burada qalın, mən uşaqla
oraya gedəcəyəm. Səcdə edib, yanınıza qayıdarıq». [6] İbrahim yandırma qurbanı üçün odun götürüb
oğlu İshaqın kürəyinə qoydu, odu və bıçağı isə özü götürdü. Onlar birlikdə getdilər. [7] İshaq atası
İbrahimi çağırdı: «Ay ata!» O cavab verdi: «Buradayam, oğlum». İshaq dedi: «Od və odun var, bəs
yandırma qurbanı olacaq quzu haradadır?» [8] İbrahim dedi: «Oğlum, yandırma qurbanı olacaq
quzunu Tanrı Özü hazırlayacaq». Onlar birlikdə getdilər. [9] Sonra Tanrının İbrahimə göstərdiyi yerə
gəldilər. İbrahim orada bir qurbangah düzəldib odunları düzdü və oğlu İshaqın əl-qolunu bağlayıb
qurbangaha, odunların üstünə qoydu. [10] İbrahim əlini uzadıb oğlunun başını kəsmək üçün bıçağı
götürdü. [11] Rəbbin mələyi göylərdən onu çağırdı: «İbrahim, İbrahim!» O «Mən buradayam!»
dedi. [12] Mələk dedi: «Uşağa əl qaldırma və ona bir şey etmə. İndi bildim ki, sən Tanrıdan qorxursan;
öz yeganə oğlunu Məndən əsirgəmədin». [13] İbrahim başını qaldırıb baxdı və arxasında buynuzları
kolluğa ilişmiş bir qoç gördü. İbrahim gedib qoçu götürdü və oğlunun əvəzinə yandırma qurbanı
olaraq təqdim etdi. [14] İbrahim o yeri Yahve-İre adlandırdı; buna görə də indiyə qədər belə deyilir:
«Rəbbin dağında hazırlanacaq». [15] Rəbbin mələyi yenə göylərdən İbrahimi çağırıb dedi: [16] «Rəbb
bəyan edir: "Öz varlığıma and içirəm ki, sən bu işi etdiyinə və yeganə oğlunu əsirgəmədiyinə
görə [17] Mən sənə böyük xeyir-dua verəcəyəm, nəslini göydəki ulduzlar və dəniz kənarındakı qum
qədər artırıb çoxaldacağam. Sənin nəslin öz düşmənlərinin şəhərlərinə sahib olacaq. [18] Dünyanın
bütün millətləri sənin nəslinin vasitəsilə xeyir-dua alacaq, çünki sən Mənim sözümə
qulaq asdın"»

## <u>Sorular:</u>

- Fəsli oxuyarkən ürəyinizdə hansı hisslər yarandı?
- Bu bölümdəki personajlar nələri hiss etdilər?
- Onun yeganə oglunu gurban təqdim etməsi ilə verilən vəd  necə əlaqələndirilə bilər ("Bütün yer üzünün millətləri onun nəsli vasitəsilə xeyir-dua alacaq")?